# SOCAR prezidenti Bakı Ali Neft Məktəbinin tələbələri ilə görüşüb





**Yanvarın 29-da Gənclər Günü ərəfəsində SOCAR prezidenti Rövnəq Abdullayev Bakı Ali Neft Məktəbi tələbələrinin böyük bir qrupu ilə görüş keçirmişdir. Görüşün əvvəlində Məktəbin dosenti, tələbələrin sevimlisi Xanım Cəfərovaya SOCAR-ın Fəxri Fərmanı təqdim olunmuş və bu, tələbələr tərəfindən alqışlarla qarşılanmışdır.**

SOCAR prezidenti Rövnəq Abdullayev tələbələrin müəllimlərini böyük coşqu ilə alqışlamasına sevindiyini bildirmiş, mühəndislər üçün riyaziyyat fənninin böyük əhəmiyyətindən söz açmış, özünün də vaxtilə ona dərs demiş riyaziyyat müəllimləri ilə əlaqəsini davam etdirdiyini söyləmişdir. Xanım Cəfərova əməyinə verilən qiymətə görə SOCAR rəhbərliyinə dərin minnətdarlığını bildirmiş, BANM-də işləməyindən qürur hissi keçirdiyini vurğulamışdır.

Səmimi atmosferdə, qalstuksuz, "üz-üzə, göz-gözə görüş" formatında keçirilmiş tədbirdə SOCAR prezidenti tələbələri qarşıdan gələn Gənclər Günü münasibətilə təbrik etmiş, gənclərə onları maraqlandıran bütün suallarla müraciət etmək imkanı yaratmış, verilmiş sualların hamısını ətraflı cavablandırmışdır. Tələbələr SOCAR-ın və BANM-in fəaliyyəti, inkişaf perspektivləri, dünya neft sənayesində baş verən proseslərlə bağlı SOCAR prezidentinin mövqeyi ilə tanış olmuşlar. Görüşün gedişindən və yaradılan səmimiyyətdən ruhlanan gənclər hətta SOCAR əleyhinə sosial şəbəkələrdə aparılan qərəzli antireklam kampaniyasının əsas mövzularını təşkil edən məsələlərə də aydınlıq gətirilməsini xahiş etmişlər. SOCAR prezidenti R.Abdullayev dekabrın 4-də dənizdə təbii fəlakət zamanı Neft Daşlarında və "Günəşli" yatağındakı 10 saylı özüldə baş vermiş qəzalar nəticəsində itkin düşən neftçilərin axtarışı istiqamətində aparılan tədbirlərə, həmin faciədə həlak olanların və itkin düşənlərin ailələrinə maddi və mənəvi yardımların göstərilməsinə, Gürcüstandakı dini məbədlərə SOCAR-ın hesabına qaz verilməsi ətrafında süni surətdə yaradılmış qalmaqala və sosial şəbəkələrdə aktual olan bir sıra başqa məsələlərə münasibətini bildirmişdir. Azərbaycanda qazlaşdırma səviyyəsinin guya aşağı olmasına dair fikirlərə toxunan R.Abdullayev demişdir: "Bu fikirlər kökündən yanlışdır və tam əsassızdır. Diqqət yetirin, Azərbaycanın həm şimal, həm də cənub qonşuları dünyanın güclü qaz dövlətləridir. Amma buna baxmayaraq, bizdə qazlaşdırmanın səviyyəsi bu ölkələrin hər ikisindən xeyli yüksəkdir. Dövlətimizin başçısı bizim qarşımızda məsələ qoymuşdur ki, ən əvvəl ölkə daxilində əhalinin qaz təminatını yüksəldək. Hazırda Azərbaycanda qazlaşdırmanın səviyyəsi 90% təşkil edir. Avropaya qaz ixrac etməyə başlayanda biz bu səviyyəni daha da yüksəldəcəyik".









Görüşdə BANM-in tələbələri SOCAR prezidentinə uğurlu karyerasının sirləri, həyatda uğur qazanma yolları haqqında da çoxsaylı suallar vermiş, onun fəaliyyətinin müxtəlif tərəfləri ilə maraqlanmışlar. Rövnəq Abdullayev dövlətimizin gənclər siyasətindən, Azərbaycanda və o cümlədən də SOCAR-da gənclərin karyera yüksəlişi üçün yaradılmış imkanlardan ətraflı bəhs etmiş, fikirlərini öz həyat və fəaliyyət yolundan gətirdiyi misallarla əsaslandırmışdır. SOCAR prezidenti tələbələrlə canlı dialoq şəklində qurulmuş görüşün əhəmiyyətini vurğulamış, belə tədbirlərin bundan sonra da mütəmadi olaraq keçiriləcəyini söyləmişdir.

Görüşün sonunda tələbələr SOCAR prezidenti ilə selfi çəkdirmişlər.